XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

LERİK

№ 16-17 (5555) ❁ 22 sentyabr 2015-ci il ❁ Qəzet 1937-ci ildən çıxır ❁ Rayonun ictimai-siyasi qəzeti ❁ Qiyməti 40 qəpik

Azərbaycan dünyaya günəş kimi doğacaq.

Heydər ƏLİYEV

Vətəndaşların qəbulu keçirildi

Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.

Öncə Operativ İdarəetmə Mərkəzi vasitəsi ilə Siyov və Çayrud kənd icra nümayəndəliklərindən olan vətəndaşlar qəbul edildi. Kənd inzibati ərazi dairəsi üzrə icra nümayəndələri ərazidəki mövcud durum barədə rayon icra hakimiyyəti başçısına məlumat verdilər.

Qəbul zamanı Siyov kənd sakinləri Qüdrət Əmirov və Asif Əhmədov Siyov inzibati ərazi dairəsi üzrə kəndlərin qazlaşdırılmasına, Siyov kəndinə 3 km məsafədən su xəttinin çəkilməsinə köməklik göstərilməsini, Hovil kənd sakini Bağış İbrahimov kollec bitirmiş qızının ərazidə müvafiq işlə təmin olunmasını xahiş etdilər.

Çayrud kənd sakini Nəsir Rzayev yeni dərs ilinin başlanması ərəfəsində Çayrud kənd tam orta məktəbinin mərkəzləşdirilmiş qazanxanasına qaz xəttinin çəkilməsinə və məktəbin idman zalının çökmüş dam örtüyünün bərpasının vacibliyini bildirdi və köməklik göstərilməsini xahiş etdi. Hər iki ərazi icra nümayəndəlikdən olan onlayn qəbul edilən vətəndaşlar tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verildi.

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 30 nəfər vətəndaş qəbul olunaraq dinlənildi.

Pirasora kənd sakini, şəhid atası Şahrza Təhməzov odun yanacağı ilə təmin olunmasına və qəzalı vəziyyətdə olan evinin təmirinə, Pirzəkücə kənd sakini Sərnaz Heydərova inşaat materialının verilməsinə, Cəngəmiran kənd sakini Çiçək Əhədova, Kincvo kənd sakini Faiq Əliyev ev tikməkdən ötrü həyətyanı torpaq sahəsinin ayrılmasına köməklik göstərilməsini, Mastail kənda sakini Xanımbacı Abdullayeva, Şingədulan kənd sakini Asudə Ağayeva torpaq paylarının naturada göstərilməsinə, Rəzəvul kənd sakini, Qarabağ müharibəsi əlili Məhəbbət Nəsirov oğlunun, şəhər sakini Şəhla Abidova, Soru kənd sakini Nazbacı Cəfərova və başqaları işlə təmin olunmaqlarına, Pirzəkücə kənd sakini Cahil Babayev kənd yolunun asfaltlaşdırılmasına köməklik göstərilməsini xahiş etdilər.

Qəbulda olan vətəndaşların müraciətlərinin araşdırılması və həlli mümkün məsələlərin icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

2014-2015-ci tədris ilinin yekunlarına həsr olunmuş konfrans

Lerik rayonu təhsil işçilərinin 2014-2015-ci tədris ilinin yekunlarına həsr olunmuş konfransı keçirildi. Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzərək xatirəsinə ehtiramlarını bildirdilər.

Rayon mədəniyyət evində davam etdirilən tədbirdə rayon təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov hesabat məruzəsi ilə çıxış edərək bildirdi ki, ötən dərs ilində rayonun 107 ümumtəhsil müəssisəsində 7677 nəfər şagird təhsil almışdır. Onların təlim-tərbiyəsi ilə 1283 müəllim məşğul olmuşdur. Cari ildə rayonun tam orta məktəblərini 541 nəfər bitirmişdir. Rayon üzrə məzunlardan bu il 116 nəfər ali məktəblərə qəbul olmuşdur. Onlardan da 15 nəfər qəbul imtahanlarında 500-dən, o cümlədən 6 nəfər 600 baldan yuxarı nəticə göstərmişdir. Qeyd olundu ki, ötən dərs ilində rayon məktəbliləri zona müsabiqələrində, fənn olimpiadalarında, idman yarışlarında uğurla iştirak edərək bir sıra nailiyyətlər qazanmışdır. Hesabat məruzəsində, həmçinin təhsil müəssisələrində yeni dərs ilinə hazırlıqla bağlı görülən işlərdən bəhs edildi, qarşıda duran vəzifələr diqqətə çatdırıldı. İşdə yol verilmiş nöqsanlara obyektiv münasibət bildirildi, məktəb direktorlarından daha yaxşı işləmək tələb edildi. Yeni məktəblərin tikintisinə görə, ölkə başçısı cənab Prezident İlham Əliyevə minnətdarlıq ifadə olundu.

Konfransda Lerik Rayon İcra Hakimiyyəti başçısının Monidigah kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Sulduz Abdullayev, Gürdəsər kənd tam orta məktəbinin müəllimi Vahid Cəbrayılov görülmüş işlər və qarşıda duran vəzifələr barədə fikirlərini bölüşdülər, rayonun təhsil işçilərinə yeni dərs ilində daha yüksək nailiyyətlər arzuladılar.

Lerik şəhər 3 saylı tam orta məktəbinin 2015-ci il məzunu, ali məktəblərə qəbul imtahanlarında 616 bal toplamış Fariz Qənizadə çıxış edərək qazandığı uğurlara görə müəllimlərinə təşəkkürünü bildirdi, bundan sonra da müəllimlərinin və rayonun adını daim ucaldacağını qeyd etdi. Cari ildə ali məktəblərə qəbul imtahanlarında 652 bal toplamış Nazən Əhmədovanın valideyni, Nücü kənd sakini Qaşqay Əhmədov övladının əldə etdiyi nailiyyətlərdə müəllimlərin rolunun böyük olduğunu qeyd etdi, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun şöbə müdiri Elxan Bəylərov konfransda çıxış edərək təhsil sahəsində aparılan islahatlardan söz açdı, məruzə və çıxışlarda səsləndirilən təkliflərə münasibətini bildirərək qarşıda duran vəzifələrlə bağlı tövsiyələrini verdi.

Konfransda Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev çıxış edərək rayonda təhsilalanlar və təhsilverənlər üçün yaradılmış şəraitdən söz açdı, yeni məktəb binalarının tikilərək müasir inventar və avadanlıqlarla təchiz olunduğunu bildirdi. Qeyd etdi ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında təhsilə yüksək qayğı göstərilir, cənab Prezident özü məktəblərin açılışında iştirak edir. Bu diqqət və qayğı təhsilin inkişafına stimul verir, rayonumuzun pedaqoji kollektivi göstərilən qayğını qiymətləndirməli və onlar göstərilən etimadı layiqincə doğruldulmalıdır.

Daha sonra konfransın qətnaməsi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

Sonda tədrisdə fərqlənən bir qrup müəllimə fəxri fərman, bu il ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr göstərmiş tələbələrə qiymətli hədiyyələr və mükafatlar təqdim olundu.

"Yeni söz karvanı" Lerikdə

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə rayon mədəniyyət evində keçirilən "Yeni söz karvanı" adlı ədəbi-bədii tədbiri açıq elan edən Heydər Əliyev Mərkəzinin direktoru Hüsamədin Abbasov bildirdi ki, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2008-ci ildən başlayaraq hər il ənənəvi olaraq respublikanın müxtəlif şəhər və rayonlarında tanınmış şair və yazıçıların, ədiblərin və muğam ifaçılarının iştirakı ilə keçirilən bu tədbir insanların geniş rəğbətini qazanmışdır.

Tədbirin keçirilməsində əsas məqsəd xalqımızın mədəniyyətinin, ədəbiyyatının təbliği ilə yanaşı ölkənin regionda yaşayan insanların respublikanın yaradıcı ziyalıları ilə birbaşa ünsiyyətini təmin etmək, yeni ədəbi nümunələrlə tanış olmasına nail olmaqdır.

Tanınmış şair Çingiz Əlioğlu tərəfindən tədbir davam etdirildi. Şair Ç.Əlioğlu ölkə Prezidenti cənab İlham Əliyevin qayğı və diqqəti nəticəsində sürətlə inkişaf edən respublikamızın, o cümlədən regionlarımızın gündən-günə gözəlləşdiyini, tikinti-quruculuq işlərinin vüsət aldığını qeyd etdi. Bu inkişafın, abadlığın Lerik rayonunda da yüksək səviyyədə getdiyini bildirdi.

Şairlərdən Əsəd Cahangir, Əhməd Qəşəmoğlu, Yusif Nəğməkar çağdaş Azərbaycan ədəbiyyatının inkişaf tendensiyaları haqqında fikirlərini bildirdilər, maraqlı şerlərini oxudular.

Tədbir iştirakçılarının arzusu ilə əsərləri dünyanın bir çox ölkələrinin dilinə tərcümə edilmiş şair Çingiz Əlioğlu yaradıcılığından bəzi nümunələri təqdim etdi. Tanınmış şairlərin öz ifalarında şerləri ictimaiyyətin alqışları ilə qarşılandı.

Eyni zamanda, son illər Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qayğı və diqqəti ilə inkişaf etdirilən muğam sənəti, keçirilən muğam festivalları haqqında məlumat verən Çingiz Əlioğlu muğamın Azərbaycan xalqının milli sərvəti olduğunu bir daha vurğuladı.

Muğam müsabiqəsinin iştirakçıları olan gənc ifaçılar Sədəf Budaqova və Sərxan Bünyadzadə tərəfindən bir-birindən maraqlı musiqi nömrələri təqdim olundu və alqışlarla qarşılandı.

Sonda Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Elbəy Əli çıxış edərək tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi.

Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatında 2015-ci il üçün vətəndaşların qəbulu günlərinin

CƏDVƏLİ

S/s	Soyadı, adı, atasının adı	Vəzifəsi	Qəbul günləri və saatı	Telefon
1	Bağırov Rövşən Elmidar oğlu	Lerik Rayon İcra Hakimiyyəti başçısı	II gün 10:00-da	025 274-63-02 025 274-61-82
2	Baxşıyev Cəlil Yüzbaşı oğlu	Başçının birinci müavini	I gün 11:00-da	025 274-60-21
3	Məlikov Habil Ağaxan oğlu	Başçının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri	III gün 10:00-da	025 274-60-22
4	Vəliməmmədova Arzu Həmzə qızı	Başçının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri	IV gün 10:00-da	025 274-60-23
5	Rzayev Baləli Yağnəli oğlu	Memarlıq və tikinti şöbəsinin müdiri	V gün 10:00-da	025 274-46-68
	Bayramov Əlipənah Hüseynağa oğlu	İnformasiya təminatı və təhlil sektorunun müdiri	V gün 10:00-da	025 274-53-92
6	Zahidov Mahmud Abbas oğlu	Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri	VI gün 11:00-da	025 274-54-70
	Quliyev Araz Qurban oğlu	Hüquq şöbəsinin müdiri	VI gün 11:00-da	025 274-47-64

Qeyd: Azərbaycanın Milli Qəhrəmanları və onların ailə üzvləri, şəhid ailələri və Qarabağ əlilləri rayon icra hakimiyyəti başçısı aparatına müraciət edərkən növbədənkənar qəbul edilir.
Bayram günlərinə düşən qəbul günləri növbəti iş günlərinə keçirilir.

Tarixi gün

1991-ci il avqustun 30-da ulu öndər Heydər Əliyevin gərgin mübarizəsindən sonra "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edilibdir. Müstəqil yaşamaq, taleyinin sahibi olmaq, öz dövlətini qurmaq hər bir millət üçün böyük səadətdir. Uzun illər xalqımız bu şərəfli işdə, yəni müstəqillik arzusuna qovuşmaq naminə çətin yollar keçmiş, hətta canlı şəhidlər vermişdir. Məhz Heydər Əliyevin müdrikliyi, yürütdüyü düzgün siyasət nəticəsində Azərbaycan müstəqillik qazandı.

Azərbaycanda dövlət müstəqilliyi yolunda mücadilə 1988-ci ildə xalq hərəkatı ilə başlandı. O vaxtlar bu hərəkata rəhbərlik iddiasında olanların səbatsızlığı, səriştəsizliyi yalnız respublikanı dərin böhrana sürükləyirdi. Bunu başa düşən xalq ulu öndər Heydər Əliyevə üz tutdu. Heydər Əliyevin 1990-cı ilin iyulunda Naxçıvana qayıdışından sonra başlanan milli dirçəliş prosesi bütün Azərbaycanın siyasi mühitinə yeni bir nəfəs gətirdi. Onun Naxçıvanda parlament seçkilərinə qatılması və qalib gəlməsi Azərbaycanda milli azadlıq hərəkatının mütəşəkkilləşməsinə gözəl təsir bağışladı.

1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tarixi-onun aydın yollarını, əsas şərtlərini, demokratik dövlət quruculuğunun prinsiplərini ortaya qoydu.

Respublika Ali Sovetinin 1991-ci il avqustun 30-da növbədənkənar sessiyasında xalq deputatı Heydər Əliyevin israrlı tələbi ilə "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etdi. 1991-ci il 18 oktyabr Azərbaycanın dövlət müstəqilliyi elan olundu. 1993-cü ilin iyununda xalqın arzusu ilə ulu öndər Heydər Əliyev dövlətimizin idarəçilik sükanının arxasına keçdi. Azərbaycanın dövlət müstəqilliyi təmin olunmaqla, xalqın azad, firavan yaşaması naminə parlaq gələcəyə yol açdı.

mizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirəsinə başladı. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Heydər Əliyevin bütün çıxışlarında, xüsusən Azərbaycan Ali Sovetinin iclaslarında Azərbaycanın dövlət müstəqilliyinin qaçılmaz proses olduğu göstərilirdi. Ali Sovetin 1991-ci il martın 7-də keçirilən sessiyasında Heydər Əliyev Azərbaycanın milli müstəqilliyi və suverenliyi məsələsinə toxunaraq

Zəfər Orucoğlu

Bilik günü Lerik rayonunun orta məktəblərində qeyd olunub

Ruh yüksəkliyi ilə

15 sentyabr - Bilik günü İldırım Nuriyev adına Qosmalian kənd tam orta məktəbində böyük ruh yüksəkliyi ilə qeyd olunub.

Əlamətdar günlə bağlı yeni dərs ilinə hazırlıq işləri vaxtında görülüb. Yeni dərs ilinin başlanması münasibətilə keçirilən tədbiri məktəbin direktoru Kamal Hüseynov açmış, müəllim və şagirdləri təbrik etmişdir. O, qeyd etmişdir ki, son illərdə qazanılan bütün tədbirlər ölkə başçısı İlham Əliyevin təhsilin inkişafı ilə əlaqədar imzaladığı proqramlar çərçivəsində həyata keçirilən islahatlar, ölkənin birinci xanımı Mehriban Əliyevanın təhsil obyektlərinin yeniləşməsi sahəsində gördüyü işlərin və dövlətimizin bu sahəyə xüsusi qayğısının nəticəsi kimi dəyərləndirilməlidir.

Təhsil uğurlarından danışan K.Hüseynov demişdir:

- Məktəbimizin məzunlarından 5-i ali, 2-si orta ixtisas məktəblərinə daxil olmuşdur. Onların uğurları bizi sevindirir, lakin arxayınlaşdırmır. Müəllimlərimiz ölkəmizin gələcək inkişafı üçün savadlı, təhsilli gənclər yetişdirməyə söz veriblər.

Qosmalian kənd ərazi icra nümayəndəsi Oqtay Şıxəliyev, müəllimlərdən Kamal Məmmədov, Etibar Nəhmətov tədbirdə çıxış etmiş, məktəb kollektivinə xoş arzularını bildirmişlər.

Həmişə irəlidə

Lerik şəhər 3 saylı tam orta məktəbi qabaqcıl təhsil müəssisəsi kimi Lerikdə məşhurdur. Hər il gənclər ali və orta ixtisas məktəblərinə daxil olur, həyat meydanlarında özlərini sınayırlar. Burada 450 nəfər şagird oxuyur. Məktəbin məzunlarından bu il 13 nəfər ali məktəblərə daxil olmuşdur. Üç məzun 500 baldan, 4 nəfər məzun isə 400 baldan çox yığmışdır. Qənizadə Fariz 616 bal yığaraq Dövlət Neft Akademiyasına daxil olmuşdur.

- Yeni dərs ilinə uğurla qədəm qoyan pedaqoji kollektivimizi yeni nailiyyətlər gözləyir, - deyə məktəbin direktoru V.Mədətova sözünə davam etmişdir: - Məzunlarımız ölkənin iqtisadi və müdafiə qüdrətini artırmaq üçün öz töhfələrini verirlər. Azərbaycanda təhsilə olan böyük diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun yaradıcılıqla davam etdirilir. Bu bizi yeni uğurlar qazanmağa ruhlandırır.

Lerik rayon təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov "Bilik günü"nə həsr olunmuş tədbirdə iştirak etmiş, sabahın qurucularında nailiyyətlər arzulamışdır.

Məruzələr dinlənilib

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkil etdiyi mühazirə M.Bağışov adına Lerik şəhər 3 saylı tam orta məktəbində dinlənilib.

Həmin mühazirəyə həsr olunmuş yığıncağı məktəbin direktoru Validə Mədətova açmış, multikulturalizm siyasətinin həyata keçirilməsində ulu öndər Heydər Əliyevin böyük xidmətindən danışmışdır.

Respublika AMEA-nın gənc alim və mütəxəssislər şurasının monitorinq qrupunun rəhbəri, kimya üzrə fəlsəfə doktoru Əfsun Sucayev "Heydər Əliyev Azərbaycanın multikulturalizm siyasətinin banisidir" mövzusunda məruzə etmişdir.

Rayonun bir neçə məktəbində bu mövzuda məruzələr dinlənilmişdir.

Fərəh

Ayselin ali məktəbə qəbul imtahanlarında yüksək bal yığaraq Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olması atası Əzizəli kişini nə qədər sevindirmişdisə, onu ali məktəbə hazırlayan müəllimi Şəfahət Vahabovanı bir o qədər fərəhləndirmişdir. Müəllim sevinclə, fərəhlə doğma kəndə qayıdan sevimli şagirdi Aysel İbrahimovanı təbrik edərək bağrına basmış, ona xoş arzularını bildirmişdi. Təbiətən təvazökar olan Aysel isə müəllimlərin zəhmətini itirmədiyi üçün fərəh hissi keçirirdi.

Bu fərəhdən, sevincdən söz yox ki, Veri kənd tam orta məktəbinin direktoru Mirismayıl Vahabova da pay düşür. O, deyir:

- Veri kəndinin tarixində ilk dəfə olaraq yurdumuzun qız övladı ali məktəbə daxil olur. Həm də Aysel İbrahimova 615 bal yığaraq yüksək nəticəyə nail olub. Ayselin dayısı Fəxrəddin bacısı qızına zarafatla "Aysel doktor" deyə müraciət edərdi. İndi budur, dayının və Ayselin arzuları çin oldu. Onunla bərabər bu il Amil İsgəndərov, Fəxrəddin Tahirov, Murtağı Novruzov, Aynur Fətullayeva ali məktəb tələbəsi adını qazanıblar. Bu bizi çox fərəhləndirir, daha yaxşı işləməyə həvəsləndirir.

Müəllimlərin konfransına dəvət olunanlar sırasında Aysel İbrahimova da var idi. Onun adı ən çox bal yığanlar arasında çəkildi. Lerik rayon təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov Ayselə mükafat verdi, fəxri fərman təqdim etdi. Dedi ki, belə tələblər rayonumuzun şərəfini qoruyur.

Yeni dərs ilinin başlanması münasibətilə Aysel İbrahimovanı təbrik edir, ona daha yüksək zirvələr arzu edirik.

Hicran İbrahimov

21 sentyabr Beynəlxalq Sülh Günüdür

Azərbaycan sülhsevər ölkədir

"Sülh Zəngi"

Sülh dinindən, dilindən, irqindən asılı olmayaraq bütün insanların bir-birini anlaması, bir-birinə xoş münasibətidir. Sülh həm də bəşəriyyətin ən çox arzu etdiyi bütün müsbət keyfiyyətləri özündə birləşdirən fundamental bir məfhumdur. Məhz buna görə də 1981-ci ildə dünya ölkələrinin yekdil qərarı ilə BMT-nin Baş Məclisi Beynəlxalq Sülh Gününü təsis edib.

Həmin vaxtdan etibarən, Sülh Günü hər il sentyabr ayının 3-cü həftəsinin çərşənbə axşamı qeyd edilməyə başlanıb. Lakin 2001-ci ildə - bu əlamətdar günün 20 illiyi ilə əlaqədar Birləşmiş Krallığın təklifi ilə BMT-nin Baş Məclisi Sülh Günü üçün 21 sentyabrı dəyişməz tarix kimi təsdiqləyib. Həmçinin, BMT həmin gün dünyanın bütün qaynar nöqtələrində atəşkəsin gözlənilməsini tələb edib.

Hər il Beynəlxalq Sülh Günü BMT-nin Nyu-Yorkdakı Baş Qərargahının həyətində yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayır. "Sülh zəngi" 1954-cü ildə BMT-nin Nyu-Yorkdakı qərargahına Yaponiya parlamenti tərəfindən hədiyyə edilib. Bu zəng dünyanın bütün uşaqları tərəfindən toplanaraq Xirosima və Naqasaki faciələrinin baş verdiyi Yaponiyaya göndərilən metal pulların, yüzlərlə döyüşçüyə məxsus orden və medalların ərintisindən hazırlanıb. "Sülh zəngi"nin üzərində "Yaşasın Mütləq Dünya Sülhü" sözləri yazılıb.

BMT-nin müraciəti

Hər il sentyabrın 27-də BMT-nin Baş katibi "Sülh Zəngi"ni çalaraq dünya xalqlarına müraciət edir, bütün döyüş əməliyyatlarını 24 saat ərzində dayandırmağa çağırır. BMT-nin Baş katibi Pan Gi Mun "Sülh bizim missiyamızdır; gündəlik axtarışlarımızın mövzusudur", - müraciətində dünya ictimaiyyətini sülhə nail olmaq üçün bütün səyləri birləşdirməyə səsləyir.

İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsinin 60-cı ildönümü münasibətilə BMT-nin Baş katibi Pan Gi Munun müraciətində qeyd edildiyi kimi, hələ də dünyada bir çox insanların hüquqları, xüsusilə silahlı münaqişələr zamanı və atəşkəs dövründə pozulmaqda davam edir: "Məhz buna görə də biz çalışmalıyıq ki, bəyannamədə qeyd olunan hüquqlar günümüzün reallığına çevrilsin".

Baş katibin sözlərinə görə, BMT dünya xalqlarını səfərbər etmək məqsədilə mesaj kampaniyasına start verir: "Mənim mesajımda deyilir: 21 sentyabr Beynəlxalq Sülh Günüdür. Mən ümumdünya liderlərinə və bütün dünya əhalisinə səslənərək, münaqişə, yoxsulluq və aclığa qarşı, hamı üçün insan hüquqlarının təmin olunması istiqamətində qüvvələrin birləşdirilməsinə çağırıram".

Dünya sülh istəyir

Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər çür zorakılığın dayandırılması arzusu bütün tarix boyu bəşəriyyəti düşündürüb. Amma təəssüf ki, tarix boyu, bəlkə də, elə ən çox pozulan bu arzu, bu istək olub....

Bu gün dünyada sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə sülh qorunmur, müdafiə edilmir. Dünyanın bir çox yerlərində zorakılıqlar baş alıb gedir, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir. Həqiqətən də, dünyanın müxtəlif qütblərində saysız-hesabsız insan qrupları üçün sülh hələ də əlçatmazdır.

BMT-nin Baş katibinin hər il Beynəlxalq Sülh Günündə dünya xalqlarına müraciətində deyildiyi kimi, münaqişələrin səngiməsi, atəşkəs rejiminə tərəflərin qarşılıqlı şəkildə əməl etməsi təkcə insanların əmin-amanlıq şəraitində yaşaması deyil, eyni zamanda inkişaf, tərəqqi, bəşəri təhlükəsizliyə təminatdır. Sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində aparılan beynəlxalq miqyaslı tədbirlər nəticəsiz qaldıqca insanların qorxu, vahimə içərisində yaşaması da davam edir.

Azərbaycan sülh tərəfdarıdır

Bütün dünyada olduğu ki, Beynəlxalq Sülh Günü Azərbaycanda da geniş şəkildə qeyd edilir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) təşəbbüsü ilə hər il ölkəmizdə avqustun 21-dən sentyabrın 21-dək "Beynəlxalq Sülh Günü" aylığı keçirilir. "Sülh aylığı" çərçivəsində keçirilən silsilə tədbirlərdə Beynəlxalq Sülh Günü haqqında ictimaiyyətə geniş məlumat verilir, dünyada sülhün, əmin-amanlığın, ədalətin bərqərar olunmasının, təhlükəsizliyin təmin edilməsinin hər bir sülhsevər xalqın, bütün insanların arzusu olduğu bildirilir.

Bəşəriyyətin əbədi mövzusu olan sülh mövzusu torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, dünyanın ən sülhsevər xalqlardan olan, dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın ölkəmizə təcavüzü nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşüblər.

Bu illər ərzində Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik göstərərək qan tökülməsinin qarşısını aldı, 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzaladı, müharibəni dayandırdı, ölkədə sabitliyə nail oldu. Bu, həm də dövlətimizin sülh arzusunun ifadəsi idi....

Bu gün Azərbaycanla Ermənistan arasında atəşkəsin imzalanmasından 21 ildən çox vaxt keçir. Ermənistan isə hələ də BMT Təhlükəsizlik Şurasının münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrin heç birinə əməl etmir və atəşkəsin pozulması halları tez-tez qeydə alınır... Bu gün güclü orduya malik Azərbaycan və onun Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür...

Son illər bəşəriyyətin xoş hisslər və böyük ümidlə qeyd etdiyi təqvim günləri arasında bir bayram da var: 21 sentyabr Beynəlxalq Sülh Günü! Bu əlamətdar günü dünyanın bütün sülhsevər insanları kimi, Azərbaycan xalqı da böyük sevgi ilə qeyd edir. Silahların susmasına və qeyri-zorakılığa həsr olunan Beynəlxalq Sülh Günü nəinki xalqlar arasında, həmçinin ailələrdə, məktəblərdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, köklü zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir fürsətdir.

Elgiz Mehdiyev,
Lerik rayon prokurorluğunun müstəntiqi, II dərəcəli hüquqşünas

Daun sindromlu uşaqlar üçün əyləncəli gecə

Dövlətimiz ciddi genetik xəstəliklə doğulan uşaqlara xüsusi diqqət və qayğı göstərir. Daun sindromlu uşaq və yeniyetmələr üçün Bakıda Reabilitasiya Mərkəzi yaradılmışdır. Hazırda bu Mərkəzdə 150 nəfər müalicə almaqla təlim-tərbiyə alır.

Bu günlərdə onların bir qrupu rayonumuzda qonaq olmuş, "Relax" istirahət mərkəzində dincəlmişdir.

Lerik rayon Mədəniyyət Mərkəzinin "Bahar" ansamblı Daun sindromlu uşaqları ziyarət etmiş, onların şən və mənalı istirahət etmələri üçün maraqlı proqramla çıxış etmişdir. Əlil uşaq və yeniyetmələr tədbir boyu rəqs etmiş, şənlənmişlər.

Görüşdə rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəliməmmədova və Lerik rayon Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov çıxış edərək əlil uşaqlara cənab Prezidentimiz İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın diqqət və qayğısından danışmış, onlara Lerikdə gözəl istirahət arzulamışlar.

Sonda Reabilitasiya Mərkəzinin direktoru Zərifə Məmmədova və əlil anası Sevinc Babayeva gecənin təşkilatçılarına minnətdarlıqlarını bildirmişlər.

Paleolit arxeoloji ekspedisiyasının 2015-ci ildə apardığı tədqiqat işlərinin ilkin nəticələri

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun paleolit arxeoloji ekspedisiyasının rəhbəri arix elmləri doktoru Əsədulla Cəfərov müxbirimizin suallarına cavab verərək deyir:

- AMEA Arxeologiya və Etnoqrafiya institutunun paleolit arxeoloji ekspedisiyası 2015-ci ilin iyul-avqust aylarında tarix elmləri doktoru Əsədulla Cəfərovun rəhbərliyi altında Lerik rayonu ərazisində olan Zuvandçay paleolit düşərgəsində arxeoloji qazıntı işləri aparmışdır. Zuvandçay paleolit düşərgəsi 2007-ci ildə paleolit arxeoloji ekspedisiyasının Lerik rayonu ərazisində apardığı arxeoloji kəşfiyyat işləri zamanı qeydə alınmışdır.

Zuvandçay paleolit düşərgəsi Lerik rayonu ərazisində, Buzeyr kəndi yaxınlığında olub, Zuvandçayın sol sahilində yerləşir. Zuvandçay paleolit düşərgəsi dəniz səviyyəsindən 1630 metr yüksəklikdə, çayın müasir yatağından 200 metr hündürlükdə yerləşir.

Zuvandçay paleolit düşərgəsində ilk elmi tədqiqat işləri 2011-ci ildə aparılmışdır. Aparılan arxeoloji kəşfiyyat işləri zamanı düşərgənin çöküntülərində arxeologiyanın müxtəlif dövrlərinə aid maddi-mədəniyyət qalıqları tapılmışdır.

2012-ci ildə paleolit arxeoloji ekspedisiyası Zuvandçay paleolit düşərgəsində arxeoloji qazıntı işləri aparmışdır və nəticədə düşərgənin çöküntülərində hələlik 6 təbəqə olması müəyyən olunmuşdur.

2015-ci ildə paleolit arxeoloji ekspedisiyasının əsas məqsədi aşağıdakılardan ibarət olmuşdur:

1. Zuvandçay paleolit düşərgəsinin yeni tədqiqat sahəsində çöküntünün stratiqrafiyasının müəyyən olunması;
2. Çöküntü sahəsində maddi-mədəniyyət qalıqlarının yerləşmə xüsusiyyətlərinin müəyyən edilməsi;
3. Tapılan daş məmulatının texniki-tipoloji xüsusiyyətlərini təyin olunması;
4. Aşkar olunmuş maddi-mədəniyyət qalıqları əsasında ayrı-ayrı təbəqələrdə arxeoloji mədəniyyətləri müəyyən etmək;
5. Düşərgədən tapılmış fauna qalıqları əsasında ovçuluq təsərrüfatının əsas cəhətlərini və ərazinin heyvanat aləmini tədqiq etmək;
6. Yeni tədqiqat sahəsindən aşkar olunmuş arxeoloji və paleontoloji məmulatlar əsasında düşərgədə məskunlaşmış qədim insanların həyat tərzini və mənəvi aləminin ayrı-ayrı xüsusiyyətlərini müəyyən etmək;
7. Yeni tapılmış maddi mədəniyyət qalıqlarının xarakterik və fərqli cəhətlərini müəyyən etmək;
8. Zuvandçay və Viləşçay vadilərində arxeoloji kəşfiyyat işləri aparmaq;
9. Aşkar olunmuş arxeoloji və paleontoloji məmulatlar əsasında elmi məqalələr və hesabat yazmaq.

2015-ci ildə Zuvandçay paleolit düşərgəsində arxeoloji qazıntı işləri düşərgənin giriş yolunun sağ tərəfində 12 kv.m həcmində aparılmışdır. Aparılan arxeoloji qazıntılar zamanı düşərgənin çöküntülərindən bu hissədə hələlik 5 arxeoloji təbəqə qeydə alınmışdır. Qazıntılar zamanı müəyyən olunmuşdur ki, düşərgənin çöl tərəfinə doğru getdikcə çöküntünün qalınlığı artır. Məhz buna görə də gələcəkdə Zuvandçay paleolit düşərgəsində aparılacaq arxeoloji qazıntı işləri zamanı daha yeni mədəni təbəqələrin qeydə alınması güman olunur.

Paleolit arxeoloji ekspedisiyasının 2015-ci ildə Zuvandçay düşərgəsinin I və II təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı orta əsrlər, antik, dəmir və tunc dövrlərinə aid gil qab qırıqları tapılmışdır. Düşərgənin III, IV və V təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı isə daş dövrünün müxtəlif inkişaf mərhələlərinə aid əmək alətləri və ovlanmış heyvan sümükləri qalıqları tapılmışdır.

Maraqlıdır ki, Zuvandçay paleolit düşərgəsinin IV və V təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı bir neçə ocaq layları qeydə alınmışdır. Zuvandçay düşərgəsinin çöküntülərində ocaq laylarının qeydə alınması düşərgə sakinlərinin ocaqdan istifadə etdiklərini göstərir.

Zuvandçay paleolit düşərgəsinin aşağı təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı ovlanmış heyvan sümüklərinin qalıqları tapılmışdır. Düşərgədən tapılmış sümük məlumatı içərisində ayrı-ayrı heyvanlara məxsus çənə və dişləri qeydə alınmışdır. Məhz tapılmış çənə və dişlər əsasında sümük məmulatının hansı heyvan və quş növünə aid olunması müəyyən edilmişdir.

Zuvandçay paleolit düşərgəsinin III, IV və V təbəqələrindən tapılmış daş məmulatları arasında əmək alətləri, qəlpələr, istehsal tullantılar və çay daşları qeydə alınmışdır. Düşərgənin III təbəqəsindən tapılmış daş məmulatlarının texniki və tipoloji tədqiqi əsasında onların üst paleolit dövründə hazırlandıqları müəyyən olunmuşdur. Düşərgənin IV və V təbəqələrindən tapılmış daş məmulatlarının texniki və tipoloji tədqiq zamanı onların mustye mədəniyyəti dövründə yəni 120-130 min illər əvvəllərdə hazırlandıqları müəyyən edilmişdir. Zuvandçay paleolit düşərgəsi Azərbaycanın cənub ərazisində - Talış dağları ərazisində qeydə alınmış ən böyük qədim insan düşərgəsidir. Yaşayış sahəsinə görə Zuvandçay paleolit düşərgəsi Azərbaycanda qeydə alınmış Azıx paleolit düşərgəsindən sonra ikinci ən böyük qədim insan düşərgəsi hesab olunur.

Paleolit arxeoloji ekspedisiyası 2015-ci ildə qazıntı işləri ilə yanaşı ətraf ərazilərdə arxeoloji kəşfiyyat işləri də aparılmışdır. Aparılan arxeoloji kəşfiyyat işləri zamanı Zuvandçayın sol sahilində yeni qədim insan düşərgəsi qeydə alınmışdır. Həmin düşərgəyə Zuvandçay paleolit düşərgəsi adı verilmişdir. Düşərgədə torpaq çöküntüsü vardır. Gələcəkdə burada aparılacaq arxeoloji qazıntı işləri zamanı düşərgədə məskunlaşmış insanların hansı dövrdə yaşadıqları müəyyən olunacaqdır.

Paleolit arxeoloji ekspedisiyasının 2015-ci ildə apardığı tədqiqatlar zamanı tapılmış maddi-mədəniyyət qalıqlarının elmi tədqiq davam edir. Bu da Zuvandçay paleolit düşərgəsində məskunlaşmış ən qədim insanların ovçuluq təsərrüfatı, məşğuliyyəti, mənəvi aləmi, əmək alətlərinin texniki tipoloji xüsusiyyətləri və digər cəhətlərin müəyyən olunmasına zəmin yaradacaqdır.

Söhbəti yazdı: İdris Şükürlü

Elan

Lerik rayonunun Şingədulan kənd sakini Nağıyev Lətif Bəğiş oğlunun adına 11 fevral 2004-cü il tarixində Dövlət Yerquruluşu Layihə İnstitutu və DTXK-nin Lerik rayon şöbəsi tərəfindən verilmiş (JN-0002 kod 80323018) torpağa mülkiyyət hüququna dair Dövlət aktı naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

AĞ XALATIN İŞIĞI

Hər dəfə Vəlixan Böyükxan oğlu Bədəlovun adı çəkiləndə onu tanıyanların üzündə nur, qəlblərində mənəvi rahatlıq hissi yaranır. İnsanlığın zinəti sayılan saf və ülvi dəyərləri parlaq xarakterində cəmləşdirən Vəlixan xeyirxah və nəcib peşə sahibi olduğuna görə sevilir. O, rayonda bilik və bacarığı ilə ad qazanan həkimdir. Elə onun 62 illik ömür yolunu mənalandıran xidmət etdiyi əhaliyə sevgisi, həkim peşəsinə ürəkdən bağlılığıdır. Xoşbəxtliyini sevib-seçdiyi peşədə, insanlara gərək olmaqdan görür. Neçə illərdir ki, Vəlixan həkim öz istedadı, bacarığı ilə adamları sevindirir, qayğıkeş olmaqla ədalətə, işığa dəstək verir. Leriklilər, xüsusilə də analar onun işıqlı təfəkküründən, səfalı əllərindən qədərincə bəhrələnə bilirlər. O, yorulmadan qüvvə və bacarığını sərf edir, ömründən ömürlərə pay ayırır. Həmişə də əyninə geydiyi ağ xalatın təmizliyini hər şeydən üstün tutur.

Vəlixan Bədəlov 1977-ci ildə Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib təyinatla Saatlıya gəlir. Dünyanın ən xoşbəxt adamı kimi işə başlayır. İlk gündən xəstələrə həssas, qayğıkeş münasibət bəsləyir, gərəkli bir həkim kimi onların sağalması üçün narahatçılıq keçirir. Yuxusuna tez-tez haram qatır ki, heç kim - nə ana, nə də uşaq xəstəlikdən əziyyət çəkməsin. Əlləri səfalı, ayağı sayalı olur. Sağaldığı xəstə ona inandığı üçün tez də sağalır. Saatlıda işlədiyi müddətdə səfalı əlləri çox xəstəni sağaldır. Yenilikçi həkim olduğuna görə sevilir, hörməti artır. Bir daha başa düşür ki, ən şərəfli peşə elə onun sesdiyi peşədir.

Vəlixan həkim 1981-ci ildə Lerik dağları üçün darıxdığını hiss edir. O, dağlardan qurur, çeşmələrdən saflıq aldığı doğma rayona qayıdır. Burada rayon mərkəzi xəstəxanasının uşaq xəstəxanasında fəaliyyətini davam etdirir. Savadlı, təcrübəli, elmli həkim olduğu kimi hamıda inam yaradır. Analar cəsarətlə körpələrin sağlamlığını ona etibar edir. Saf diləkli, xoş niyyətli Vəlixan həkim peşəsini kamil bilməsi ilə həmişə uğur qazanır. Sağaltdığı körpə fidanlara əsl övlad məhəbbəti bəsləyir. Bilir ki, körpələr gələcəyimizdir.

Beləcə illərin qanadında Vəlixan Bədəlov yaşadıqca yaşadır, mənəvi paklığı, biliyi, praktikası, ictimai işləri ilə fərqlənir. Rayon mərkəzi xəstəxanasının uşaq şöbəsi Yaponiya hökuməti tərəfindən əsaslı təmir olunur. Bir il keçəndən sonra həmin şöbəyə rəhbərlik etmək ona tapşırılır. Onun işə məsuliyyəti daha da artır, burada yaxşı aura yaradır. Həkimlik fəaliyyətini xəstələrinə təmənnasız münasibət izləyir. Hər dəfə sağaltdığı körpələrin gülüşü, təbəssümü sanki dünyanı ona bağışlayır. Axı, dahi Viktor Hüqo necə də gözəl deyib: "Dünyada körpə qığıltısından əzəmətli himn yoxdur".

Anaların və uşaqların, balaların, nənələrin sevimlisi olan Vəlixan həkim görəndə ki, həkimlik peşəsini

doğruldur, fərəhindən ürəyi köksünə sığmır. O, tək dava-dərmanla deyil, şirin sözləri, şən zarafatları, bəzən də təbəssümü ilə də xəstələrə şəfa verir. Axı, söz də dərman kimi şəfaverici gücə malikdir.

Daim öyrənməyə can atan Vəlixan həkim dəfələrlə ixtisasartırma kurslarında olmuşdur. Gənc həmkarlarına məsləhətlər vermiş, onlara yeniliklər barədə danışmışdır. Vəlixanın qardaşı Elxan Bədəlov rayonun təcrübəli, sevilən həkimi idi. O, dünyasını vaxtsız dəyişsə də, həmişə xatırlanır. Yazıçı-jurnalist dostum İdris Şükürlü, Elxan Bədəlova "Dünyadan bir loğman köçdü" kitabını həsr etmişdir. Vəlixan həkim qardaşının yolunu uğurla davam etdirir, həmişə onun adını ucaldır.

Zəfər Əliyev

Məşğulluq prioritet məsələdir

24 aprel 2015-ci il tarixdə Heydər Əliyev Mərkəzində "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq bəndlərinin pozulmasında təqsirkar olan işəgötürənlərə qarşı tətbiq edilən inzibati cərimələr barədə işəgötürənlərin məlumatlandırılması və işəgötürənlərlə qarşılıqlı əlaqələrin qurulması" mövzusunda işəgötürənlərin, idarə və müəssisə rəhbərlərinin iştirakı ilə dəyirmi masa keçirilmişdir.

İşsiz və işaxtaran vətəndaşların aidiyyatı üzrə işlərlə təmin edilməsi məqsədi ilə işəgötürənlərlə daim əlaqə saxlanılır. Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da işsizlərin işlə təmin edilməsindən ötrü sahibkarlığın inkişafına

Dövlət məşğulluq siyasətinin gücləndirilməsi bu sahədə mövcud olan problemlərin həllinə və əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə istiqamətlənir. Yeni iş yerlərinin açılması və müvəqqəti sərbəstləşmiş işçi qüvvəsinin sosial müdafiəsi məsələləri sahəsində görülən tədbirlərlə yanaşı, ölkənin əmək potensialından daha dolğun istifadə edilməsi dövlətin daim diqqət mərkəzində olan məsələlərdəndir.

Rayon məşğulluq mərkəzi cari ilin səkkiz aylıq dövrü ərzində işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə onların məşğulluğunun təmin edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir. Mərkəzi bu məqsədlə Lerik Rayon İcra Hakimiyyətinin Məşğulluğa Kömək Göstərən Əlaqələndirmə Komitəsi ilə birlikdə 2015-ci il üçün "Ərazi Məşğulluq Proqramı" tərtib etmişdir. Həmin proqram Rayon İcra Hakimiyyəti başçısının 26 sentyabr 2014-cü il tarixli, 188 saylı sərəncamı ilə təsdiq edilmiş və icra edilməkdən ötrü mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə və təşkilatlara göndərilmişdir. Mərkəzdə həmin proqrama uyğun iş aparılmışdır. Tərtib olunmuş "Ərazi Məşğulluq Proqramı"nda 2015-ci il ərzində 346 nəfərin Məşğulluq Mərkəzinə müraciət etməsi proqnozlaşdırılmışdır. Mərkəzdə qeydiyyatda olan vətəndaşlardan 211 nəfərin işlə təmin edilməsi, 12 nəfərinə işsizlik statusu verilməsi, 16 nəfərin peşə hazırlığı kursuna, 16 nəfərin isə haqqı ödənilən ictimai işlərə cəlb edilməsi nəzərdə tutulmuşdur.

2015-ci ilin səkkiz aylıq dövrü ərzində rayon Məşğulluq Mərkəzinə 230 nəfər işaxtaran vətəndaş müraciət etmişdir. Mərkəzdə qeydiyyatda olan vətəndaşlardan 133 nəfəri aidiyyatı üzrə müvafiq işlərlə təmin olunmuşlar. Həmin vətəndaşlar əsasən Lerik rayon Səhiyyə şöbəsində, Mədəniyyət və Turizm İdarəsində, Meşə Mühafizə və Bərpası müəssisəsində, Kommunal Müəssisələri Birliyində, Gigiyena və Epidemiologiya Mərkəzində, Yaşıllaşdırma İdarəsində və sair təşkilatlarda aidiyyatı üzrə işlərlə təmin edilmişlər. Qeyd olunan dövr ərzində 6 nəfər işaxtaran vətəndaşa işsizlik statusu verilmiş, 7 nəfər vətəndaşa isə işsizlik müavinəti təyin edilmişdir.

geniş meydan verilmişdir. Yeni yaradılmış iş yerləri hesabına işaxtaran və işsiz vətəndaşların məşğulluğu əsaslı dərəcədə təmin edilmişdir. Məşğulluq xidməti orqanlarının fəaliyyətində işaxtaranların və işsiz vətəndaşların sosial-müdafiəsinin təmin olunması məqsədi ilə aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsinə daha çox üstünlük verilir. Bu mühüm aktiv məşğulluq tədbirlərindən biri də respublikamızın bütün şəhər və rayonlarda hər il keçirilən Əmək yarmarkalarıdır. Yarmarkanın keçirilməsində əsas məqsəd işəgötürülənlərlə işsiz və işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətin təmin edilməsidir. Yarmarkanın keçirilməsi ilə əlaqədar işəgötürənlərin real tələbatı öyrənilir, müəssisə və təşkilatlar tərəfindən boş iş yerləri haqqında məlumat yığılaraq yarmarka vasitəsi ilə təqdim olunur. Məlum olduğu kimi, bu aktiv məşğulluq tədbiri 1997-ci ildən respublikamızın bütün rayonlarında davam etdirilir. Keçirilən Əmək yarmarkalarında respublikada minlərlə, o cümlədən rayonumuzda da yüzlərlə işaxtaran vətəndaş münasib iş yerləri ilə təmin olunmuşdur.

Əmək yarmarkasına 22 müəssisə və təşkilatlardan 414 boş iş yeri təqdim edilmişdir. Boş iş yeri təqdim etmiş müəssisələrdən 17 dövlət, 5 isə qeyri-dövlətdir. Bu gün tutulmamış vakant iş yerləri sonrakı günlərdə də işaxtaran vətəndaşlara tövsiyə ediləcəkdir.

Zəfər İsmayılov,
Lerik rayon Məşğulluq Mərkəzinin direktoru

"Hikmət boğçası"

Rayon Ağsaqqallar Şurasının üzvü, dəyərli ziyalımız Hacı Musarza Məmmədov bu yaxınlarda mənə bir kitab təqdim etdi. Dedi ki, oxuyub fikirlərini mənimlə bölüşərsən. Oxudum və qərara gəldim ki, bu kitab barədə "Lerik"in çoxsaylı oxucularına da məlumat verim.



"Hikmət boğçası" adlı kitab Salyan şəhərindən olan iki yaradıcı ziyalının - ata və oğulun, Mətləb və Hacı Rəşad Axundovların qələminin məhsuludur. Əsər Azərbaycan Respublikasının Bayraq gününə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə 24 oktyabr 2014-cü il tarixdə 2800 illik yubileyi keçirilən qədim tarixə malik Salyana və müasir Azərbaycan gəncliyinə ithaf olunmuşdur. Müəlliflər bu kitaba qədər "Müdriklik işığında" və "Zəkanın təntənəsi" əsərləri ilə oxucuların görüşünə iki dəfə gəlmişlər.

Altı fəsildən ibarət "Hikmət boğçası"nda publisistik məqalələr, dini mövzuda söhbətlər, ulu öndərimiz Heydər Əliyevin dəyərli kəlamları, sağlamlıqla bağlı faydalı məsləhətlər, bizim maraq dünyamızı əhatə edən yazılar toplanmışdır. Kitabın redaktoru şair, yazıçı-publisist, nasir Fəxrəddin Fərzəliyevdir.

"Hikmət boğçası" kitabı yüksək vətənpərvərlik hisslərindən, azərbaycançılıq məfkurəsinin və ideyalarının formalaşıb inkişaf etdirilməsində xüsusi önəm daşıyan əsərlərdən biridir. Oxucu böyük düha, zəka sahibi Heydər Əliyevin tarixə düşən kəlamları, müdrik deyimləri, güclü yumor hissi və hazırcavablığı ilə yaddaşlarda qalan ifadələri ilə tanış olduqca onun Vətənə məhəbbəti, yurda sevgisi, el-obaya bağlılığı daha da artır.

Kitabda yazıçı Əjdər Olun "Müdriklik" kitabından seçmələr də yer almışdır. Ümummilli liderimizin yüksək yumor hissi və hazırcavablığına aid belə bir nümunə verilmişdir:

"Bölgələrə səfərlərinin birində "Uzaq sahillərdə" filmində Mehdi Hüseynzadə rolunun ifaçısı, aktyor Nodar Şaşıqoğlu da Heydər Əliyevlə birgə olur. Həmin səfərdə iştirak edən bir yazıçı danışır ki, elə bir məqam yarandı ki, Nodar Şaşıqoğlu ərklə Heydər Əliyevə dedi:

- Yoldaş Əliyev! Məndən muğayat olun, bir də gördünüz ki, Sizin rolunuzu oynayıram.

Heydər Əliyev halını dəyişmədən ona belə cavab verdi:

- Buna ehtiyac yoxdur, Nodar, mən öz rolumu özüm oynayıram.

"Publisistik məqalələr" bölməsində Azərbaycan səhnəsinin korifey sənətkarlarından biri, Azərbaycan Respublikasının xalq artisti Əli Zeynalov, qüdrətli sənətkar, dahi mütəfəkkir Mirzə Fətəli Axunzadə, Azərbaycanın böyük dilçi alimi Əbdüləzəl Dəmirçizadə, tanınmış şair Oqtay Rza, görkəmli aktyor, xalq artisti Həsən Məmmədov və bir sıra digər sənətkarlarımız barədə maraqlı yazılar qələmə alınmışdır.

Müəlliflərin qələmə aldıqları dini mövzuda söhbətlər, nəsihətlər və tövsiyələr oxucunu mənən paklaşdırır, saflaşdırır. İslamın insanlığa, bəşəriyyətə, halallığa, ədalətə xidmət edən, hamını sülhə, əminamanlığa səsləyən bir din olduğunu diqqətə çatdırır.

Kitabda "Bizim bitib-tükənmək bilməyən maraq dairəmiz" fəsli ilə tanış olduqca maraq dünyamızı daha da zənginləşdiririk.

İnanırıq ki, "Hikmət boğçası"nı açanlar bu qiymətli boğçadan yararlanıb hikmət dünyasına səyahət edəcəklər.

Lerikli oxucular adından kitabın müəllifləri Mətləb və Hacı Rəşad Axundovlara yeni yaradıcılıq uğurları arzulayırıq.

Hüsaməddin Abbasov,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Vətənə məhəbbət

Ramiz Qasımov sadə peşə sahibidir. Bu sadə zəhmət adamı mənalı bir ömür yaşayır. O, sürücüdür, peşəsinin sərrafıdır. Lerikdə texniki peşə məktəbini bitirmişdir. Elə o vaxtdan da cəmiyyətdə lazım olduğunu sübut etməyə çalışmışdır. Axı, peşənin böyüyü, kiçiyi olmaz, sərrafı olar.

Haqqında söz açdığımız Ramiz Qasımov 24 ildir ki, sükan arxasındadır. Peşəsinə vurğun olduğuna görə gördüyü işin də faydası çox olur. Ramiz 19 il Lerik rayon mərkəzi xəstəxanasında çalışmışdır. Nümunəvi işi, nizam-intizamı, həmkarları ilə xoş münasibəti, tapşırılan işə məsuliyyətlə yanaşması ona başucalığı gətirir. Həkimləri vaxtında xəstələrin çağırış ünvanına çatdırır. İnsanlara gərəkli peşə sahibi olduğunu görəndə daha həvəslə işləyir, hörmət qazanır.

İndi R.Qasımov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsində sürücü işləyir. İdarə etdiyi "Ford" markalı avtomobillə hərbi xidmətə gedən gəncləri vaxtında və rahat xidmət yerlərinə çatdırır. O, öz işini nümunəvi yerinə yetirməklə bərabər, həm də gəncləri vətəni ürəkdən sevməyə, ləyaqətlə xidmət etməyə ruhlandırır. Deyir ki, Vətəni sevirəm demək azdır, gərək öz sevgini, məhəbbəti əməli işdə göstərəsən. Yüksək mənəvi keyfiyyətlərin sahibi olan Ramizin köksündə doğma elinə-obasına məhəbbət, həyat eşqi ilə dolu bir ürək çırpınır. Yaxşı deyiblər ki, insanı ucaldan, yaşadan onun nəcib əməlləri, halal əməyi, pak arzularıdır. Ramizə də belə bir tale nəsib olub.

Babək

Küçələrə asfalt döşənir

Leriki dağlar gözəli adlandıranlar yanılmırlar. Getdikcə gözəlləşən şəhərə, onun istirahət mərkəzlərinə turist axını artıb. Təmir-tikinti, abadlıq işləri, yol tikintisi davam etdirilir, fərdi evlərin sayı artır.

Şəhərdə su-kanalizasiya sistemi yenidən qurulduğundan buradakı küçələrin asfalt örtüyü dağılmış, onları yenidən bərpa etmək həm çox vaxt aparmış, həm də əlavə vəsait sərf etməyə səbəb olmuşdur. İndi budur, küçələr yenidən görkəmini dəyişir, asfalt-beton örtüyü təzələnir, su lükləri qaydaya salınır.

Oxucuların nəzərinə çatdırırıq ki, Lerik rayonunda yol tikintisi ilə "Yoltikintinəqliyyatservis" MMC məşğul olur. Bu cəmiyyət rayonda məktəb, uşaq bağçası və kənd təsərrüfatı idarəsi tikir, abadlıq işlərini həyata keçirir. MMC-nin rəhbəri Fuad Muxtarzadə ilə Lerik şəhərinin H.Aslanov küçəsinin tikintisi zamanı görüşdük. O, görülən işlərə şəxsən nəzarət edir, yol tikintisini keyfiyyətlə başa vurmaq üçün texnik və sürücülərə, fəhlələrə göstəriş verirdi. Fuad Muxtarzadə yolda işləyənləri əli ilə göstərərək deyir:

- Gördüyünüz kimi, yol asfalt-beton örtüyünə tam hazırlanmışdır. İndi əsas vəzifə yola asfalt daşımaqdan, sıxıcı və bərkidici maşınlarla yolun gediş hissəsini texnologiyaya uyğun hala gətirməkdən ibarətdir. Bu da əhalinin rahatlığını təmin etmək, yollara və küçələrə müasir görkəm verməkdə başlıca şərtdir.

Öyrənirik ki, burada işgüzar və bacarıqlı yol ustaları işləyirlər. Kipləşdirici maşında işləyən İmran Həsənov, sıxıcı maşınları idarə edən Samir Bahadurlu, Səfər İsmayılov, ağır yük maşınları ilə asfalt-beton daşıyan sürücülər İslam Aşurov, Rüfət Qurbanov, Əbülfət Sultanov, Ariz Əhmədov, fəhlələrdən Adil Zeynalov, Elmir Qəmzəyev, Cəmil Ruhullayev, İlkin Ağayev, Elşad Ağayev və başqaları keyfiyyətli iş görür, tapşırılan işi vaxtında başa çatdırırdılar.

Yol ustası Gəray Baxşıyev deyir:

- Bizə tapşırılmışdır ki, altı küçəyə asfalt-beton döşəyək. H.Aslanov və N.Əliyev küçələrində bu işi icra etmişik. Havalar imkan versə, qalan dörd küçədə tikinti aparacağıq.

Prezident İlham Əliyevin sərəncamı ilə Lerik-Qosmalian-Kəlvəz, Noda-Şingədulan-Xanagah yollarının tikintisini "Yoltikintinəqliyyatservis" MMC icra etmişdir. Bu cəmiyyət böyük layihələri uğurla icra edir, sabahkı işlər üçün etimad qazanır. Əhali illər boyu arzusunda olduğu möhtəşəm işlərin həyata keçirildiyini gördükcə cənab Prezident İlham Əliyevə minnətdarlıq ifadə edir.

"Lerik"

103 yaşlı Əzəmət nənə

Əzəmət nənə ilə onun yaşadığı Divaqac kəndində görüşdük. Oğlu Kamal müəllim nənənin dirsəklənməsinə kömək edib dedi:

- Dostum rayon qəzetindən gəlib. Sənlə görüşmək, haqqında məqalə yazmaq istəyir. Sənə bir neçə sual vermək istəyir.

Əzəmət nənə dedi:

- Qonaq Allahındır. Çox xoş gəlib. Bu yaşımda məni yada salıbsa, ona sağ ol deyirəm. Ömrün uzun olsun, oğul.

Əzəmət nənə keçmiş günləri yada saldı. Azərbaycan xalqına, xüsusən də Prezident İlham Əliyevə, millət vəkili Mehriban xanıma uzun ömür, can sağlığı arzuladı. Dedi ki, asfalt yol evimizin yanından keçir. Məktəblər tikilir, kəndlərə qaz verilir. Biz ahıl qocalar dövlətin himayəsindəyik. Nə qədər ki, canımız sağdır, ölkə başçısına duaçı olacağıq.

Əzəmət nənə 40-a yaxın övlad, nəvə-nəticə sahibidir. Hamısını çox istəyir. Gəncliyində xalça-palaz toxuyub, bağ becərib, ailə qayğıları ilə məşğul olub. Oğlu Kamal müəllimdən çox razılıq edir.

"Lerik"

Xoş xəbər

Çayxanada oturub söhbət edirdik. Söhbət mətbuatdan düşdü. Həmsöhbətim dedi ki, əvvəlkindən fərqli olaraq mətbuatı, göndərişləri gecikmədən alır, dünyada baş verənlərdən xəbər tuturuq. Qəzet və jurnalları bizə operativ çatdıran poçtalyon Elməddin Nəsirovdan çox razıyıq. O, gəncdir, enerjilidir, cəlddir, nəzakət sahibidir. Lerik poçtamtında işlədiyi vaxt ərzində iş yoldaşlarının, ümumən abunəçilərin hörmət və ehtiramını qazanmış, peşəsinə bağlı olan poçtalyon adamlara xoş xəbərlər çatdıran peşə sahibi kimi özünü tanıda bilmişdir.

Bəli, yaxşıya yaxşı deyərlər. Elməddin Nəsirov Lerik post filialının qəzet çeşidləyici şöbəsinin ən yaxşı poçtalyonlarından biri sayılır. Şəhərin yeddi küçəsinin 15 adda qəzet-jurnal abunəçilərinə, digər göndərişlərin sahiblərinə əsl poçtalyon kimi xidmət edir.

İnanırıq ki, Elməddin bundan sonra da elin xidmətində ləyaqətlə duracaq, öz sadə peşəsi ilə böyük hörmət qazanacaqdır.



"Sahibkarlıq və hüquq" MMC-nin xidmətindən faydalanın

"Sahibkarlıq və hüquq" MMC Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEV cənablarının 25 oktyabr 2007-ci il tarixli 2458 saylı, sahibkarlıq fəaliyyətinin "Bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında sərəncamına əsasən yaradılmış, Bakı şəhər Vergilər Departamentinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində 24.05.2013-cü il tarixdə qeydiyyata alınmışdır.

Nizamnaməsinin 4.1. bəndində cəmiyyət, Azərbaycan Respublikasının qannvericilik aktları ilə qadağan olunmamış hüquq fəaliyyətinin istənilən növü ilə məşğul olmaq hüququna malikdir.

Lerik rayon Hüquq Məsləhətxanası olaraq, Azərbaycan Respublikası vətəndaşlarına, fiziki və hüquqi şəxslərə, sahibkarlara, hüquqi yardım, hüquqi xidmət göstərmək, hüquqi məsləhət və maarifləndirmək məqsədi ilə yaradılmışdır.

Hüquq məsləhətxanası olaraq, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun hər cür əqdlər, sazişlər, müqavilələr bağlamaq və ərizələr yazmaq hüququna malikdir.

Bizə müraciət edin, xidmətimizdən faydalanın.

Əlaqə telefonları:
(051) 505-45-00
(050) 687-67-07
(070) 387-67-07.

Ünvan: Lerik şəhəri, N.Nərimanov küçəsi, 38.

Hazırlıq görülür

Qış yaxınlaşdıqca 43 yaşlı Lerik Yol İstismar İdarəsində çalışanlar da qayğıları artır. Yol işçiləri 38 kilometr respublika, 456 kilometr yerli əhəmiyyətli yolların cari təmiri və saxlanması, nəqliyyat vasitələrinin fasiləsiz və intensiv hərəkətini təmin etməkdə məşğul olurlar. Onlar yaxşı bilirlər ki, yollar iqtisadiyyatın güclənməsində böyük əhəmiyyətə malikdir.

Lerik-Lənkəran şosse yolunda təmir-bərpa, genişləndirmə işləri davam etdirilir. Yolun altı hissəsində sürüşmələrin qarşısını almaq üçün tədbirlər görülür. Uçqunlar, küveytlər, su borularının giriş və çıxış hissələri təmizlənir. 55-ci kilometrdəki yararsız yola və çalalara 230 ton asfalt qarışığı sərf olunub. Qışa hazırlıq işləri davam etdirilir.

Kollektivimizdə bacarıqlı və təcrübəli mühəndis-texnik işçiləri çalışır. Avtoqreyderçi Eldar Ağayev, sürücülərdən Cavanşir Həndənov, Mirhafiz Vəliyev, fəhlələrdən Şakir Ramazanov, Bəxtiyar Şıxəliyev, Nəriman Nəsibov tapşırıqların öhdəsindən artıqlaması ilə gəlirlər. Onların qış mövsümünə ciddi hazırlığı göstərir ki, yollarda hərəkətlə yanaşı, nəqliyyatın təhlükəsizliyi ilə təmin ediləcək.

Ziyafət İsmayılov,
43 saylı Lerik Yol İstismar İdarəsinin baş mühəndisi

Elan

Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Elmar Mehdiyev 22 sentyabr 2015-ci il tarixdə, saat 11:00-da Lerik rayon Mədəniyyət və Turizm şöbəsində, Lerik, Lənkəran, Astara, Masallı və Yardımlı rayon vətəndaşları üçün qəbul keçirəcəkdir.

Qəbula yazılmaq və əlavə məlumat almaq istəyən vətəndaşlar aşağıdakı telefon nömrələri ilə əlaqə saxlaya bilərlər:

DSMF Lerik rayon şöbəsi - 025 27-4-40-31.

Allah rəhmət eləsin

Hacı Musa Bədəlov, Həmzə Vəliməmmədov, İdris Şükürlü, Ağacəfər Həsənli, Əliheydər Əliyev, Xureyman Qarayev, Rəzzaq Sucayev, Qədiməli Ağayev, Hüsaməddin Abbasov Qəhrəman Əliyevə, qayınanası

Dəstəgül xanımın

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov aparatın kollektivi ilə birlikdə torpaqlarımızın müdafiəsi zamanı şəhid olmu gizir

Ruslan Ağayevin

valideynlərinə dərin hüznlə başsağlığı verir.

***

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsinin rəisi Fəxrəddin Mirzəliyev Vətənin müdafiəsi uğrunda şəhid olmuş gizir

Ruslan Ağayevin

valideynlərinə dərin hüznlə başsağlığı verir.

***

78 saylı Lerik seçki Dairəsinin kollektivi DSK-nın üzvü

Qabil Əliyevin

vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası

Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36,

Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.

Sifariş: 678 Tiraj: 750

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.